# V Qəbələ Beynəlxalq Musiqi Festivalı böyük müvəffəqiyyətlə başa çatmışdır

Avqustun 6-da Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən V Qəbələ Beynəlxalq Musiqi Festivalı başa çatmışdır.

Möhtəşəm incəsənət bayramının bağlanış mərasimində festivalın bədii rəhbərlərindən biri, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq Artisti Fərhad Bədəlbəyli və Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov çıxış edərək on dörd gün ərzində Azərbaycanın dilbər guşələrindən biri olan Qəbələdə əsl musiqi bayramının yaşandığını vurğulamışlar.

Belə gözəl bayramı Azərbaycanımıza bəxş edən, bu möhtəşəm tədbirin Qəbələdə keçirilməsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya dərin minnətdarlıq ifadə olunmuşdur.

Qəbələ Beynəlxalq Musiqi Festivalının xalqlar arasında dostluq və mədəniyyət əlaqələrinin inkişafında xüsusi rolunu diqqətə çatdıran natiqlər Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edən bu incəsənət bayramının həm də ölkəmizin musiqi ənənələrinin dünyada tanıdılması üçün bir vasitə olduğunu qeyd etmişlər.

Diqqətə çatdırılmışdır ki, Azərbaycan mədəniyyətinin hamisi Mehriban xanım Əliyevanın təşəbbüsü və yaxından köməyi ilə Qəbələdə Beynəlxalq musiqi festivallarının keçirilməsi artıq gözəl bir ənənəyə çevrilmişdir.





Festival çərçivəsində kamera musiqisi və klassik musiqi axşamları, muğam konserti keçirilmişdir. Bu müddətdə Azərbaycan dinləyicilərini və tamaşaçılarını, Qəbələ əhalisini öz uğurlu, gözəl ifaları ilə məftun etmiş sənətkarlara, 12-dən artıq ölkəni təmsil edən dünya şöhrətli musiqiçilərə, Azərbaycanın tanınmış ifaçılarına minnətdarlıq edən natiqlər festivalı möcüzəli layihə adlandırmış və müxtəlif ölkələrdən gələn sənətkarların yerli və xarici tamaşaçıları valeh etdiyini xüsusi vurğulamışlar. Onlar əmin olduqlarını bildirmişlər ki, bu festival ölkələr arasında dostluq və əməkdaşlığın inkişafına yeni təkan verəcəkdir.

Qeyd edilmişdir ki, tədbir həm də Azərbaycan təbiətinin, qonaqpərvərliyinin, musiqisinin nümayişinə çevrilmişdir. Bu möhtəşəm tədbir ulu öndərimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin mədəniyyətə, incəsənətə, sənət adamlarına qayğısı, diqqəti sayəsində mümkün olmuşdur. Məhz dövlətimizin başçısının yeritdiyi siyasət belə möhtəşəm tədbirin keçirilməsinə imkan vermişdir.

Sonra açıq havada davam edən musiqi axşamında “Yeni Rusiya” Dövlət Simfonik Orkestrinin maraqlı konsert proqramı təqdim edilmişdir.

ABŞ və Rusiyanın dünya şöhrətli məşhur violonçel ifaçısı, festivalın bədii rəhbərlərindən biri Dmitri Yablonskinin dirijorluğu ilə baş tutan konsertdə məşhur rusiyalı pianoçu Boris Berezovski, nüfuzlu “Reine Elizabeth Concours” müsabiqəsinin ən gənc qalibi, tanınmış skripkaçı Vadim Repin çıxış etmişlər. Musiqiçilər bəstəkar Dmitri Şostakoviçin “Bayram uvertürası”-nı, Edvard Qriqin fortepiano və orkestr üçün konsertini təqdim etmişlər.

Festivalın yekun konserti yerli əhali və xarici ölkələrdən gəlmiş turistlər tərəfindən sürəkli alqışlarla qarşılanmışdır.

**AzərTAc.**
**Foltolar**
**S. Umuyevindir.**

# Liderlik keyfiyyətləri əsas şərtdir

**(Əvvəli 2-ci səhifədə).**

Mən yaxın keçmişdə tarixdə ikinci elə ölkə tanımıram ki, beş il ərzində iqtisadiyyatı təxminən 3 dəfə artsın. Bizim iqtisadiyyatımız çox güclənibdir. Adambaşına düşən ümumi daxili məhsulun həcmi 5800 dollardır. Bu, keçid dövrünü yaşayan ölkələr üçün çox böyük göstəricidir. Bütövlükdə, dünyada o qədər də çox ölkə yoxdur ki, adambaşına düşən ümumi daxili məhsul təxminən 6 min dollara çatsın. Bu, çox yüksək göstəricidir, ölkənin gücünü göstərir və gələcəkdə bu rəqəm daha da artmalıdır və artacaqdır, ölkənin valyuta ehtiyatı 50 milyard dollara yaxındır. Azərbaycan iqtisadi artım baxımından dunyada birinci ölkədir.

Elm, təhsil, mədəniyyət, səhiyyə sahəsindəki irəliləyişlər, ölkədə, o cümlədən doğma Qəbələmizdə turizmin sürətli inkişafı, əməkhaqqı və pensiyaların durmadan artması, əhalinin rifah halının yüksəldilməsi ağıllı və düşünülmüş siyasətin, ümumiyyətlə nümunəvi liderliyin nişanələridir.

Bir sözlə, bütün bu dediklərimiz əsas verir ki, biz növbəti Prezident seçkilərində İlham Əliyevin namizədliyini dəstəkləyək.

**Nazim MUSTAFAYEV,**
**rayon ağsaqqallar şurasının sədri.**

# Gənclər və İdman naziri Qəbələ şəhərində vətəndaşları qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq göstəriş və tövsiyələrinə uyğun olaraq Gənclər və İdman naziri Azad Rəhimov 5 avqust 2013-cü il tarixdə Qəbələ Mədəniyyət Mərkəzində Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən və İsmayıllı rayonlarından olan vətəndaşları qəbul etmişdir.



Vətəndaşların əksəriyyəti güzəştli ipoteka krediti və idman sahəsində fəxri adların verilməsi, rayonlarda gənclər mərkəzinin, idman zallarının və meydançalarının tikintisi, idman bölmələrinin açılması, gənclərlə iş sahəsində QHT-nın yaradılmasına dəstək, sahibkarlıq fəaliyyəti üçün güzəştli kredit almaq, işə düzəlmə və s. məsələlərlə bağlı müraciətlər etmişlər.

Vətəndaşların nazirliyə aid müraciətlərindən bəziləri yerindəcə həllini tapmış, digər təkliflər isə müvafiq qurumlara çatdırılmaq üçün qeydə alınmış və nəzarətə götürülmüşdür.

Nazir Azad Rəhimov Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən və İsmayıllı rayonlarının gənclər və idman idarələrinin rəisləri ilə də görüşmüşdür. Görüşdə həmin qurumların fəaliyyəti müzakirə olunmuş, qəbulun yekunları ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Daha sonra nazir Azad Rəhimov Stend Atıcılığı Mərkəzində olmuş, tikinti-quraşdırma işlərinin gedişi ilə maraqlanmışdır.

**Mübariz AĞAYEV.**
**Foto S. Umuyevindir.**